# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 115** **Bakı şəhəri, 27 aprel 2021-ci il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışan işçilərin aylıq vəzifə maaşları haqqında" 2018-ci il 14 mart tarixli 94 nömrəli, "Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə" 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli, "Dövlət informasiya sistemlərinin və ehtiyatlarının "Hökumət buludu"na Keçid Planı"nın təsdiq edilməsi və "Hökumət buludu" ilə bağlı bəzi tədbirlər haqqında" 2020-ci il 29 oktyabr tarixli 428 nömrəli qərarlarında dəyişiklik edilməsi və "Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun xərclər smetası, ştat cədvəli, işçilərinin say həddi haqqında" 2009-cu il 11 iyun tarixli 91 nömrəli və "Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun xərclər smetası, ştat cədvəli, işçilərinin say həddi haqqında" 2012-ci il 13 aprel tarixli 81 nömrəli qərarlarının ləğv edilməsi barədə***

"Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 12 yanvar tarixli 1249 nömrəli Fərmanının 8.2-ci bəndinin icrasını təmin etmək məqsədilə və "Qarabağ Dirçəliş Fondunun fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 19 yanvar tarixli 1253 nömrəli və "Azərbaycan Respublikası Prezidentinin "Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi və institusional islahatların sürətləndirilməsi ilə bağlı tədbirlər haqqında" 2014-cü il 16 aprel tarixli 152 nömrəli və "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2018-ci il 26 iyun tarixli 148 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 25 yanvar tarixli 1260 nömrəli fərmanlarına əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır**:

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 14 mart tarixli 94 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 3, maddə 604, № 5, maddə 1115; 2019, № 2, maddə 365, № 7, maddə 1347, № 8, maddə 1455, № 11, maddə 1851; 2020, № 5, maddə 657; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 5 mart tarixli 60 nömrəli Qərarı) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - "Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun, Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun işçilərinin aylıq vəzifə maaşlarının Cədvəli"nin adından ", Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun" sözləri çıxarılsın.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2155; 2019, № 3, maddələr 528, 534, 544, 563, 566, 568, № 4, maddə 753, № 5, maddələr 935, 945, 971, № 7, maddə 1325, № 8, maddə 1475, № 10, maddə 1677, № 11, maddə 1878, № 12, maddələr 2091, 2095; 2020, № 3, maddə 344, № 4, maddə 479, № 5, maddə 643, № 6, maddə 784, № 8, maddə 1134, № 9, maddə 1222, № 10, maddə 1273, № 11, maddələr 1403, 1408, № 12 (V kitab), maddələr 1589, 1597; 2021, № 2, maddə 203; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il, 5 mart tarixli 59 nömrəli, 16 mart tarixli 69 nömrəli, 19 mart tarixli 74 nömrəli və 31 mart tarixli 81, 83 nömrəli, 12 aprel tarixli 91 nömrəli, 14 aprel tarixli 95 nömrəli qərarları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə xərclərinin inzibati təsnifatı"nın "1554" kodlu sətrində "Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu" sözləri "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi" sözləri ilə əvəz edilsin.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 29 oktyabr tarixli 428 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 10, maddə 1316; 2021, № 2, maddə 203) ilə təsdiq edilmiş "Dövlət informasiya sistemlərinin və ehtiyatlarının "Hökumət buludu"na Keçid Planı"nın 6-cı hissəsində aşağıdakı dəyişikliklər edilsin:

60-cı sətrin "Dövlət qurumunun adı" sütununda "Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu" sözləri "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi" sözləri ilə əvəz edilsin;

81-ci sətrin "Dövlət qurumunun adı" sütununda "Aqrolizinq" sözü "Aqroservis" sözü ilə əvəz edilsin;

aşağıdakı məzmunda 89-cu sətir əlavə edilsin:

| | | |
|---|---|---|
| 89. | Qarabağ Dirçəliş Fondu | |

"Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun xərclər smetası, ştat cədvəli, işçilərinin say həddi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 11 iyun tarixli 91 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 6, maddə 492; 2010, № 6, maddə 571, № 11, maddə 1033; 2012, № 4, maddə 393) ləğv edilsin.

"Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun xərclər smetası, ştat cədvəli, işçilərinin say həddi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 13 aprel tarixli 81 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 4, maddə 393) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

Xalq qəzeti.-2021.- 29 aprel.- S.6.